# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

## “İnformasiya resurslarının dövlət satınalmalarının vahid internet portalına inteqrasiya olunması hədləri”nin təsdiq edilməsi haqqında

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.18-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “İnformasiya resurslarının dövlət satınalmalarının vahid internet portalına inteqrasiya olunması hədləri” təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş hədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə dövlət satınalmalarının vahid internet portalına uyğun olaraq real vaxt rejimində satınalan təşkilata və dövlət satınalmalarının vahid internet portalının operatoruna ötürülməsi üçün zəruri tədbirlər görsün.
3. Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 30 dekabr 2023-cü il

№ 491

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2023-cü il 30 dekabr
tarixli 491 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## İnformasiya resurslarının dövlət satınalmalarının vahid internet portalına inteqrasiya olunması hədləri

| Sıra №-si | İnformasiya resursları dövlət satınalmalarının vahid internet portalına inteqrasiya edilməli olan dövlət orqanlarının (qurumlarının) adı | Dövlət satınalmalarının vahid internet portalına inteqrasiya edilməli olan məlumatlar |
|---|---|---|
| 1. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 1.1. hüquqi şəxsin adı;<br>1.2. hüquqi şəxsin ünvanı;<br>1.3. hüquqi şəxsin qanuni təmsilçisinin soyadı, adı, atasının adı və ünvanı;<br>1.4. fərdi sahibkarın soyadı, adı, atasının adı və ünvanı;<br>1.5. hüquqi şəxsin və ya fərdi sahibkarın VÖEN-i;<br>1.6. hüquqi şəxsin və ya fərdi sahibkarın sahibkarlıq subyektlərinin hansı kateqoriyasına (mikro, kiçik, orta, iri) mənsub olması;<br>1.7. hüquqi şəxsin və ya fərdi sahibkarın Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərinin, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmasına dair barəsində qüvvədə olan qərarın və son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən |

| | | |
|---|---|---|
| | | fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə maliyyə sanksiyasının tətbiq edilməsi hallarının mövcud olmamasına dair Arayış;<br>1.8. lisenziya (icazə) vermiş orqanın adı və ünvanı;<br>1.9. lisenziya (icazə) sahibi olan hüquqi şəxsin (xarici hüquqi şəxsin filialının, nümayəndə-liyinin) adı, hüquqi ünvanı, fərdi sahibkarın soyadı, adı, atasının adı, VÖEN-i;<br>1.10. lisenziyanın (icazənin) verildiyi tarix və qeydiyyat nömrəsi (icazə sənəd formasında verildikdə);<br>1.11. əgər vardırsa, lisenziyanın (icazənin) qüvvədəolma müddəti (başlama və başa çatma tarixləri göstərilməklə);<br>1.12. lisenziyada göstərilmiş fəaliyyət növü (icazədə göstəril-miş hərəkət);<br>1.13. lisenziyanın (icazənin) əlavəsinin verildiyi tarix və qeydiyyat nömrəsi (lisenziyanın (icazənin) əlavəsi verildikdə);<br>1.14. yenidən rəsmiləşdirilmiş lisenziyanın (icazənin) verildiyi tarix və qeydiyyat nömrəsi (lisenziya (icazə) yenidən rəsmiləşdirildikdə);<br>1.15. lisenziyanın (icazənin) dublikatının verildiyi tarix və qeydiyyat nömrəsi (dublikat verildikdə);<br>1.16. lisenziyanın (icazənin) dayandırılması və bərpa edilməsi haqqında inzibati aktın tarixi və nömrəsi; |

| | | |
|---|---|---|
| | | 1.17. lisenziyanın (icazənin) ləğvi haqqında inzibati aktın tarixi və nömrəsi;<br>1.18. müqavilənin icrası zamanı istifadə olunacaq əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanının olması barədə məlumat |
| 2. | Azərbaycan Respublika-sının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2.1. son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respub-likasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə inzibati cərimənin tətbiq edilməsi hallarının mövcud olmamasına dair Arayış |
| 3. | Azərbaycan Respublika-sının Ədliyyə Nazirliyi “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkə-mələr üzrə | 3.1. fiziki şəxsin, yaxud hüquqi şəxsin icra orqanının rəhbərinin müvafiq satınalma predmeti üzrə müvafiq fəaliyyətlə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat;<br>3.2. hüquqi şəxs və ya fərdi sahibkarın məhkəmə qərarları ilə müflis elan olunmaması və ya bu prosedura başlanmaması, sahib-karlıq fəaliyyəti dayandırılmış şəxs olmaması, habelə borcuna görə əmlakının üzərinə tələbin yönəldilməməsi |
| 4. | Azərbaycan Respub-likasının Mərkəzi Bankı | 4.1. bank zəmanətini vermiş bankın adı və VÖEN-i;<br>4.2. bank zəmanəti verilmiş sahibkarlıq subyektinin adı və VÖEN-i; |

| | | |
|---|---|---|
| | | 4.3. bank zəmanətinin tarixi, nömrəsi, məbləği və qüvvədə-olma müddəti;<br>4.4. banka verilmiş lisenziyanın tarixi, nömrəsi, qüvvədəolma müddəti (əgər vardırsa) |
| 5. | Azərbaycan Respublika-sının Daxili İşlər Nazirliyi | 5.1. hüquqi şəxsin və ya fərdi sahibkarın daşınar əmlakın rəsmi reyestrlərində qeydiyyata alınmış nəqliyyat vasitələrindən sərbəst istifadə imkanının olması barədə məlumat;<br>5.2. hüquqi şəxs və ya fərdi sahibkarın icra orqanının rəhbəri-nin satınalmaya dair elanın verilməsindən (dəvətin göndəril-məsindən) əvvəlki 5 (beş) il ərzində iqtisadi sahədə cinayət-lərə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə, kibercinayət-lərə, habelə terrorçuluq, terrorçu-luğu maliyyələşdirmə, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırılma cinayətlərinə görə məhkum olunmaması barədə məhkəmə qərarının olub-olmaması barədə məlumat |
| 6. | Azərbaycan Respublika-sının Kənd Təsərrüfatı Nazirliyi | 6.1. hüquqi şəxsin və ya fərdi sahibkarın daşınar əmlakın rəsmi reyestrlərində qeydiyyata alınmış nəqliyyat vasitələrindən sərbəst istifadə imkanının olması barədə məlumat |
| 7. | Azərbaycan Respublika-sının Fövqəladə Hallar Nazirliyi | 7.1. hüquqi şəxsin və ya fərdi sahibkarın daşınar əmlakın rəsmi reyestrlərində qeydiyyata alınmış nəqliyyat vasitələrindən sərbəst istifadə imkanının olması barədə məlumat |